# "KİŞİ ÖMRÜ"

**Şair dostumuz Vahid Əlioğlunun bu günə kimi neçə-neçə şeirlər kitabı işıq üzü görüb. Hər kitab da öz oxucusunu tapa bilib. Ən azından ona görə ki, Vahid dostumuz hansı mövzuda şeir qələmə alıbsa, ürəkdən yazıb. Ürəkdən və qəlbdən gələn bütün sözlər həmişə bal kimi şirindi və oxucunun yaddaşında qalır.**

Bu günlərdə isə Vahid Əlioğlunun yeni kitabı - "Kişi ömrü" işıq üzü görüb. Kitabın redaktoru Nigar Əliyeva, məsləhətçisi isə əməkdar hüquqşünas Aydın Əliyevdir. Yeni kitabın araya-ərsəyə gəlməsində və oxuculara çatdırılmasında hər iki ziyalının çox böyük zəhməti və əməyi var.

Kitab şeirlərdən və poemadan ibarətdir. Və demək olar ki, Vahid Əlioğlu 70-ə yaxın şeirdə və poemada öz atasının ölməz obrazını və portretini yaradıb. Hər misranın, hər bəndin və hər sözün üstündə yarpaq kimi əsən şair "Kişi ömrü" poemasını qələmə alarkən Allah-Təaladan, Ulu Yaradandan güc istəyir. Poemanın özəlliyi və gözəlliyi ondan ibarətdir ki, klassik ənənələrə söykənən şair müasirliyi də yaddan çıxarmayıb. Yəni bu poemada klassika ilə müasirlik bir-birini tamamlayır. Kitaba filologiya elmləri doktoru, professor Adil Babayev "Kişi ömrü"nün səssiz harayı yazısını əlavə edib. Bu yazı həm də oxucu ilə şairi görüşdürməyə xidmət eləyir. Professor Adil Babayev qeyd edir ki, Vahid Əlioğlunun babası və atası müxtəlif vəzifələrdə çalışıb. Hətta babası Rəfi kişi 1920-ci illərdə təzyiqlərə və repressiyalara məruz qalır. Amma onu heç kəs sındıra bilmir. Ona görə sındıra bilmir ki, bu kişi Allaha sığınır və Allahdan kömək istəyir.

Həqiqətən də poemanı oxuyanda görürük ki, Rəfi kişi hansı çətinliklər və sarsıntılar yaşayıb. Zindanda olan babasını Vahid Əlioğlu belə təsvir edir:

**Qəflətən çiyninə bir əl toxundu,**
**Başının üstündə Həzrət Əliydi.**
**Rəfini yuxuda xilas eləyən,**
**Həzrəti Əlinin gözəl əliydi.**

Yuxuda gördükləri çin çıxır və babasını çağırıb azad edirlər. Sonradan Rəfi kişinin Əli və Həsən adlı övladları dünyaya gəlir...

Professor Adil Babayevin yazısında bir məqam da diqqətimizi özünə çəkir: "Narahat olmayın Vahid Əlioğlu! Siz atanız Əli Əliyev haqqında elə bir məhəbbət çələngi toxumusunuz ki, hər oxucu ondan minlərlə rəng-naxış tapacaq. O böyük insan haqqında elə bir dərya yaratmısınız ki, hər kəs ondan bir damla içsə, qəlbində kin, küdurət, pislik, paxıllıq və naqislik qalmayacaq. Elə bir bulaq yaratmısınız ki, bu şirin sulu bulaq həmişə çağlayacaq, hamıya xoş əhval verəcək".




Kitabı vərəqlədikcə Əli müəllimin portreti sözlə təsvir olunur. Sanki rəssam fırça ilə insanın necə obrazını yaradırsa, Vahid müəllim də atasının obrazını elə zəngin detallar və ştrixlərlə təsvir edir. Bir-birindən gözəl metaforalardan, bənzətmələrdən, təşbehlərdən istifadə eləyir. Axırda da gün işığı kimi nurlu və yaddaqalan bəşəri ata obrazı yarada bilir. Eşq olsun Vahid Əlioğlunun qələminin gücünə!

Poemada bir-birindən gözəl misralar diqqəti çəkir. Özü də bu misralarda elmə, biliyə, savada və müdrikliyə xüsusi diqqət yetirilir. İnanmırsınızsa bu iki beytə diqqət yetirin:

**... Qoyun başınıza elmdən bir tac,**
**Olmayın həyatda heç kimə möhtac.**

Yaxud:

**İnsanın başında bilik tac olar,**
**Biliklə inanın qəlbə nur dolar...**

Bax, bu poetik misralar, poetik ifadələr "Kişi ömrü" poemasına xüsusi bir rəng, xüsusi bir gözəllik gətirir.

Kitabı vərəqlədikcə bir-birindən gözəl misralar, beytlər və bəndlər adamı özünə çəkir. Təsvir olunan ata obrazının isti nəfəsini, müdrik ağlını və işıqlı dünyasını görürsən. Fikirləşirsən ki, elə bütün yaxşı atalar Vahid müəllimin atası Əli müəllim kimidi. O ata ki, xeyirxahlığı ilə, yaxşı əməliylə insanlara əl tutmağıyla, yıxılanı qaldırmağıyla Borçalı mahalında böyük hörmət qazanıb. Bu cür ziyalılar həm də bir nəslin, bir elin övladı deyil, bir mahalın, bir ölkənin övladları olmağı bacarırlar.

Poemada təsvir olunan Həsən müəllim Azərbaycan Dövlət Universitetində oxuyanda alman dilindən bizə dərs deyib. Həsən müəllim uca boyu, sərt baxışı, ciddiliyi və obyektivliyi ilə tələbə vaxtından qəlbimizdə böyük iz qoyub. Heç mən bilmirdim ki, 30 ildən sonra bir dostumun kitabından yazı yazacam və orda da Həsən müəllimin adı ilə üzləşəcəm. Görünür, mərdlik də, kişilik də, qeyrət də qanla gəlir. Elə bu nəsildən kim çıxıbsa, öz ziyalılığı, savadı və elmiylə respublikamızda böyük şan-şöhrət qazanıb. "Kişi ömrü" poemasında gözəl bir bəndlər var. Ümumiyyətlə, bu poemada bütün misralar və bəndlər poetikdir və yaddaqalandır. Ancaq aşağıdakı misralar mənim yadımda əbədi qalıb:

**Şam kimi əriyib sən gilə-gilə,**
**Qəlbini vermişdin obaya, elə,**
**Ölüm gələndə də böyük sevgiylə**
**Əcəl şərbətini içdin, ay ata!**

**Qoymadın mərdləri namərdlər əyə,**
**Haqsızlar haqlının haqqını yeyə,**
**"Allah" deyə-deyə, "haqq" deyə-deyə,**
**Haqqın dərgahına köçdün, ay ata!**

**Bax, budur əsl ata sevgisi, əsl ata məhəbbəti! Doğurdan da Vahid Əlioğlunun "Kişi ömrü" poeması bu cür gözəl misralar, poetik tapıntılarla oxucunun ürəyinə bir hərarət, bir sevgi və bir məhəbbət gətirir. İnanırıq ki, Vahid Əlioğlunun digər kitabları kimi, "Kişi ömru" də yaddaşlara həkk olunacaq, ata sevgisini qəlbimizdə bir az da alovlandıracaqdır.**

**Faiq QİSMƏTOĞLU**

Ədalət.-2017.-25 yanvar.-S.4.